# "Yay məktəbi"nin üzvləri BSU-nun Azərbaycan Multikulturalizmi kafedrasının əməkdaşları ilə görüşüblər

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və Bakı Slavyan Universitetinin birgə təşkilatçılığı ilə "Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: öyrən, araşdır, paylaş" adlı beynəlxalq yay məktəbi layihəsinə start verilib. İyulun 21-dən fəaliyyətə başlayan yay məktəbi avqustun 1-dək davam edəcək. Azərbaycan Respublikasının Millətlərarası, Multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidmətinin ideyası və təşəbbüsü ilə keçirilən yay məktəbinə 8 xarici və 7 yerli universitetlərin tələbələri ilə yanaşı, azərbaycanlı və avropalı tanınmış elm adamları da qatılacaq.



Dünən Bakı Slavyan Universitetində qonaq olan yay məktəbinin üzvləri BSU-nun Azərbaycan Multikulturalizmi kafedrasının əməkdaşları ilə görüşüblər. Kafedranın rəhbəri, dosent Aytən Qəhrəman qonaqları salamlayaraq, onlara universitetdə fəaliyyət göstərən Azərbaycan Multikulturalizmi kafedrası və burada tədris edilən Azərbaycan Multikulturalizmi fənni barədə ətraflı məlumat verib. Azərbaycanda formalaşan multikulturalizm mühitinin qədim tarixi köklərindən bəhs edən A. Qəhrəman bu ölkədə yaşayan millətlər və etnik qruplar, onların yaşayış tərzi, adət-ənənələri, dinləri və mədəniyyətləri barədə söhbət açıb.

Görüşdə BSU-nun Tədris şöbəsinin müdiri Məmmədtağı Rzayev, Azərbaycan Multikulturalizmi kafedrasının dosentləri Rauf Hacı, Ziya Səmədli, müəllim Maya Cəfərquliyeva Azərbaycanda və dünyanın bir sıra tanınmış ali təhsil ocaqlarında tədris edilən Azərbaycan Multikulturalizmi fənni və multikulturalizmin inkişafı istiqamətində görülən işlərdən danışıblar.

Bakı Slavyan Universiteti ilə tanışlıq çərçivəsində "Yay məktəbi"nin üzvləri universitetin Azərbaycan Multikulturalizmi kafedrası, muzeyi, burada mövcud olan Çex, Polyak, Bolqar, Yunan, Rusiya, Ukrayna, Türkiyə, Belarus dil və mədəniyyət mərkəzləri ilə yaxından tanış olublar. Onlara mərkəzlərin çoxşaxəli fəaliyyəti, mövcud maddi-texniki baza, zəngin kitabxana barədə geniş məlumat verilib.

***ZÜMRÜD***